**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№340/5** **15 fevral 2022-ci il**

**“Qanunvericilikdə nəzərdə tutulmuş auditdən yayınmaya görə məsuliyyətin gücləndirilməsinə dair təkliflər” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.1.1-ci “Qanunvericilikdə nəzərdə tutulmuş auditdən yayınmaya görə inzibati məsuliyyətin gücləndirilməsinə dair” bəndinin icrası ilə əlaqədar hazırlanmış Qanunvericilikdə nəzərdə tutulmuş auditdən yayınmaya görə məsuliyyətin gücləndirilməsinə dair təklifləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Qanunvericilikdə nəzərdə tutulmuş auditdən yayınmaya görə məsuliyyətin gücləndirilməsinə dair təkliflər nəzərə alınsın (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bir ay müddətində xarici audit təcrübəsi nəzərə alınmaqla “Qanunvericilikdə nəzərdə tutulmuş auditdən yayınmaya görə məsuliyyətin gücləndirilməsinə dair təkliflər” yenidən işlənib baxılmaq üçün təqdim edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**